# MİR CƏLAL PAŞAYEVİN ƏDƏBİ İRSİNDƏ TƏBİƏT VƏ İNSAN VƏHDƏTİNİN BƏDİİ İFADƏSİ

***Aynur Famil qızı Paşayeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Aynur.pashayeva@arti.edu.az*

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli yazıçısı Mir Cəlal Paşayev dövrünün tanınmış alimi və böyük mütəfəkkiri olmuş, elmi-fəlsəfi, zəngin biliyi və dərin məntiqi düşüncələri ilə seçilmiş, yüksək insani dəyərləri ilə xalqın hörmət və ehtiramını qazanmışdır. Məlumdur ki, böyük söz ustadları mövzudan asılı olmayaraq həmişə müəyyən fikirlərin və ideyaların təbliğatçılarıdır, həm də onların irəli sürdükləri ideyalar, söylədikləri mülahizələr əsas etibarilə fərdi yaradıcılıq fəaliyyətinin məhsulu kimi insanların mənəvi kamilləşməsinə xidmət edir.

Mir Cəlal Paşayev bütün yaradıcılığı boyu insanın mənəvi keyfiyyətlərindən söz açmış, bəşəri problemlərin həlli ilə bağlı irəli sürdüyü fikir və ideyalar bədii təfəkkürü zənginləşdirmişdir. O, bütün qəlbi ilə xalqa bağlı yazıçıdır, onun əsərlərində Vətənə, el-obaya, insanlara, təbiətə dərin məhəbbəti, vurğunluğu açıq-aydın nəzərə çarpır, hər sözünün, cümləsinin arxasında nəcib, xeyirxah, ülvi hisslərlə yaşayan sadə, qayğıkeş dahi bir insanın müdrikliyi dayanır.

Ədibin yaradıcılığında təbiətin tərənnümü hadisələrin substansiyasında – mahiyyətində özünəməxsusluğu ilə seçilir, təbiətlə insan qarşılaşdırılır. Oxucuda estetik zövqü – təbiətdən həzz almağı yüksək səviyyədə tərənnüm edir, sanki əsərlərində zövqlə həzzi bir-birinə bağlayırdı: “Dan yeri ağarır, göylərə gümüş kimi bir parıltı gəlir. Xəfif və sərin yay küləyi bağlardan, bostanlardan, çiçəklərdən, lalələrdən ötərək hər yerə ətir gətirir”. Başa bir təbiət mənzərəsinin təsvirində: “Yay səhərinin xəfif, sərin küləyi tük süpürgə kimi, həyətə çəkilirdi” (1, I, s.350). Yaxud, “bayır bərk qaranlıqdır, sakitlikdi.

Dumandan sonra başlayan xəfif payız yağışı kəsilmək üzrə idi. Göyün bir yerinə sanki top dəyib sökülmüşdü ulduzlar görükürdü. Yarpaqlarda birikmiş damlalar ağırlaşıb, yerə düşdükcə, "şib-şib" səsi gəlirdi" (1, I, s.159). Bu bədii etüdlərdə mütəfəkkir yazıçı oxucusunun təsəvvüründə təbiətin nizamını, hərəkət dairəsini hiss etdir, canlandırır: sübh tezdən oyananlar dan yerinin ağrmasını aydın görür, günəş şüalarının ətrafa səpələnmiş gümüş kimi parıltısından gözü qamaşır, yay səhərinin sərin mehi üzünə dəyir, payızda yağışdan sonra topa buludların dağılmasını seyr edir, yarpaqlardan damcıların xəfif səsini dinləyir və s. Bütün bunlar Mir Cəlalın təbiətə vurğunluğundan qaynaqlanaraq dərin müşahidə qabiliyyəti nəticəsində yaradıcılığında təbiətin bütün incəliyini yüksək ustalıqla, milli düşüncə tərzi ilə təsvir etmək imkanı verirdi.

Mir Cəlal təbiətdə axtardığını sualların cavabını, gördüyü bütün gözəlliklərin sirrini insanla bağlayırdı: "Yazın yuxusu nə qədər şirinsə, oyaqlığı da o qədər ləzzətlidir. Oyaq olasan! Səhərin açılmasına, dənizin içindən qalxan günəşə, üfüqün gül rənginə, may paltarı geyinmiş meyvə ağaclarının yaylıq oynatmasına, səslərində yerə gümüş pul səpən quşlara, daşları yalayaraq axan duru sulara, arılara, o şüursuz "memarlara" baxdıqca, ən tez duran adamlardan salam aldıqca ömür artmırmı? (1, I, s.75). Burda insanları təbiətin təsvir olunan bu gözəlliklənıri duymaqla, zövq almaqla yanaşı, səhər oyanmağın insan sağlamlığı üçün nə qədər əhəmiyyətli olduğu vurğulanır.

Görkəmli yazıçı təbiətdə gördüyü bütün predmetləri canlı kimi dəyərləndirir, təbiətin bir parçası kimi əhəmiyyətini ifadə edir, hər yeni yaranış həyatın ifadəsi, fəlsəfəsi kimi xatırladır, onu sadə dildə, insanların anlayacağı tərzdə izah etməyə cəhd edirdi. Yazıçı üçün maraqlı nüans odur ki, "təbiət səhv edə bilər, lakin sənət əsəri təbiətin bu səhvini düzətməlidir". Belə ki, bədii təxəyyüldə bənövşələr uyuyur, ağaclar yaşıl donunu dəyişir, yarpaqlar qızılı rəngə boyanır, bulaqlar çeşmələnir, güllər sərin bahar suyunu içdikcə sanki quş kimi göyə qalxır, kölgələr sallanır, gün əyilir, dan sökülür...

Yazıçı bu təbii hadisələri öz təxəyyülündə təsvir etməklə onu duyduğunu, yaşadığını oxucusuna çatdırır: "Təbiətin sədasını eşitmək – suyun, küləyin, yağışın səsini dinləmək

nədənsə həmişə mənə xoş idi. Çünki bu səslər məni boğulub təngə gəldiyim düşüncələrdən, intizar və çətinliklərdən xilas edir, anamız təbiətin qoynuna çıxarır" (1, III, s.322). Sənətkar üçün əsl məsələ təbiəti duymaq, Ana təbiətin qoynuna varmaq, bütün gücünü təbiətdən almaq, eyni zamanda, qəlbində oyanan sarsıntıların səbəbini və ruhunun dincliyini yenə də təbiətdə axtarmaqdır. Bu isə təbiət və insan vəhdətidir!

Mir Cəlalın "Söyüd kölgəsi" hekayəsini təhlili bəzi rakurslardan maraq doğurur. Əsərin qəhrəmanı sadə bostançı, kölgəni işıqla qovuşduran, zərərli günəş şüalarından insanları qorumağa çalışan Salman kişidir. O, günəşdən qorxmur, qaçmır, lakin günorta vaxtı insanın səhhətinə ziyan vurması, pis təsiri və bunun qarşısının alınması üçün yollar axtarır... Yolun ortasında belə bir kölgəyə ehtiyac hiss edəndə, deyəsən sakit bir səs içəridən ona tapşırırdı: "Burada bir ağac ək!" (1, I, s.281). Səhərisi gün sübh tezdən "Saz bulağı" deyilən balaca bir bulağın üstündə iri bir söyüd qələmini basdırır, kənarlarına da tikan düzür ki, mal-qara toxunmasın. Bu söyüd ağacı yay günü bu bulaqdan içən, əl-üzünü yumamış ötməyən yolçuların "günün istisindən yayınmağa, bir hovur oturub nəfəs dərməyə daş kölgəsi də yoxdur" gileyinə cavab idi. Qələmə böyüdü, qol-budaq atdı, kölgə saldı... Sözsüz ki, müasir oxucu bir söyüd ağacının əkilməsindən təsirlənməz. Hadisələr əsər boyu ictimai şüur əxlaqi fəaliyyətin düzgün təbliği üzərində fokuslanır, söyüd ağacına münasibət insanların davranışının mahiyyətini açıqlayır, müxtəlif subyektiv yanaşmalar diqqəti cəlb edirdi. Əslində, Salman kişi ağacı əkəndə həm insanların rifahını, sağlamlığını fikirləşirdi, həm də ağacda özünü – cavanlığını, qocalığını görürdü. Sanki təbiətlə insanın vəhdəti bu əsərdə də bir yerdə təsvir olunurdu: "Cavan və tənha ağac qol-budaq atdığı kimi, çoxdan kök buraxıb, rişəsini suya yetirmişdir. Bulaq suyundan içir, səhər günəşindən işıq, istilik alır, ildən-ilə canlanır böyüyür, yaşıl budaqlarını yasəmən salxımları kimi yolçuların başına sallayır, kölgəsi ilə çölün havasını sərinlədir, gedib-gələni salamlayırdı. Lap kənardan ötən, bulaqdan xəbərsiz yolçular da söyüd kölgəsinə sərinləməyə gedirdilər. Salman kişi bunu görəndə ürəyi böyüyür, könlü açılır, xələf övlad böyütmüş atalar kimi xoşhal olurdu" (1, I, s.282).

Bu bədii təsvirdə Mir Cəlal əxlaqi fəaliyyətin bir elementini - əxlaqi dəyərlərin, motiv və meylləri insan həyatındakı real təcəssümünü göstərmişdir, digər düşündürücü element isə daha ictimaidir - müxtəlif zövqlü, düşüncəli, "şəhərli", peşə insanların timsalında. Müəllifi düşündürən məqam, məqsəd məhz bu idi. Görən bu əkilən ağacın qədrini bilən varmı?! Onun salxım budaqları arasında sərinlənən yolçuların bir anlıq fikirlərindən nə keçir? Əxlaqi fəaliyyətlə əxlaqi münasibətin qarşılaşdırılması və "üç gün"ün məhsulu, yaxud reallığı... Birinci gün kölgəlikdə uzanan bir şəhərli: "tünbətün oğlu zəhmət çəkib əkirsən, meyvə ağacı əksənə, bir tut ağacı, ya armud ağacı əksəydin, əlin topal olmazdı ki...", - deyərək gileylənir. İkinci gün kölgədə dayanan kəl arabaçısının ağacın budağını yontalaya-yontalaya: "zalım oğlu, bunun yerində qarağacdan, çinardan bir möhkəm şey əkə bilməzdin? Söyüdün samıya nə davamı olacaq? Əlacsızlıqdan yonuram. Bilirəm ki hədərdi...", - mızıldanaraq deyinir. Nəhayət, üçüncü gün günortanın bürkü vaxtında söyüd kölgəsində nahar eləyib dincələn bir dəstə biçinçi: "Rəhmət içində olasan, ay ağac əkən kişi! ...Bu düzün ortasında söyüd kölgəsi dünyalara dəyər. Var olsun bunu əkən əllər!", - söyləyərək dua edirlər (1, I, s.284). Göründüyü kimi, müəllif üç tip personajı təqdim edir, onların davranış stixiyasını göstərir və burada ağaca empirik münasibət motivləşir: öz mənafelərini güdmək, işlərinə yaramaq, meyvəsindən yemək, sonda istidən, zərərli şüalardan qoruduğu üçün minnətdarlıqlarını gizlətməmək. Əsərdə söyüd ağacına münasibət təbiətə, cəmiyyətə, insanlığa davranışda əxlaqi və ekoloji tərbiyənin qarşılıqlı münasibətləri özündə əks etdirir. Belə ki, yazıçı oxucusuna ağac əkməyin faydası ilə yanaşı, "biz insanların gərək dünyada izi qalsın, yaxşı işi, əl yerisi qalsın" ideyasını aşılayır, həm də təbiətin bu əvəzsiz nemətlərindən düzgün istifadədə öz mənfəətlərini güdməməyə, onların qədrini bilməyə, əkib-becərənlərə "Sağ ol!" – deməyə çağırır. Eyni zamanda, hekayənin sonundakı "Atalar, babalar əkiblər, tər töküb becəriblər xeyrini biz görürük. Biz də gərək əkək, yetirək ki, xeyrini balalar görsün. Yoxsa hamı ancaq yemək qeydinə qalsa, onca ildə dünya xaraba qalar" fikri bugünkü ətraf mühitin,

təbiətin qorunması üçün aktuallığını qoruyur, ekoloji problemlərə toxunaraq insanlara, gənc nəslə maarifləndirici təsir edir.

Mir Cəlal yaradıcılığında Bakı yayının təsviri özünəməxsusdur, düşündürücüdür: "Yayda Bakıda istidən qorunmaq xüsusi bir qayğıdır. Burada istilər mayın ikinci yarısından başlanın, oktyabrın ikinci yarısında qurtarır. Bir ayın, uzağı iki ayın istisindən yaylağa qaçmaq olar. Beş ayı harada, hansı səfərdə keçirə bilərsən?". "Bağa getmişdim" hekayəsində isti yay günlərində Bakıda yaşayan, özünə "yaylaq şəraiti" düzəltməyə çalışan insanların diqqətini təbiətin bizə bəxş elədiyi Xəzər sahillərinə, Bakı bağlarına yönəldir və bu ərazilərdə insanlar tərəfindən münasib şərait salınanda isti nəinki üzücü olmur, hətta bəzi yerlərdə müalicə vasitəsinə çevrildiyi önə çəkilir. Hətta, dahi yazar Xəzər sahillərinin quru istisini neçə-neçə xəstəliyin dərmanı olduğunu vurğulayaraq sağlamlığın düsturu olan müdrik Şərq hikmətini oxucusunun nəzərinə çatdırır: "Ab, atəş, xak, bad (su, günəş, torpaq və hava)" (1, IV, s.137). Maraqlıdır ki, təbiətin bu dörd ünsürünün Bakı bağlarında hamısı var: Xəzərin müalicə suyu, yandırıcı günəş, tərtəmiz sahil qumu və dənizin təmiz havası. Bütün bunlarla yanaşı, "diş dəyən kimi, şaqqıldayın şirəsini qana yeridən şanı üzümü, pəhləvanlar gözünə işıq, qoluna qüvvət, dizinə qüdrət gətirən sarı əncir"in qiyməti əvəzsizdir. Müəllif təbiətin insanlara bəxş elədiyi bu qiymətli nemətlərdən yararlana bilməyən, yay istirahəti və müalicə şəraiti düzəldə bilməyənləri aciz insan adlandırır. Özünün də təbiətə bağlı olduğunu, istirahət günlərində "miyanə" bağına tez-tez getdiyini, yer belləmək, ağac basdırmaq, gül əkmək, su çəkmək, torpağı alaqdan təmizləməklə zövq aldığını, təbiət adamı olduğunu vurğulayırdı. "Bağ deməyiblər, bax deyiblər" prinsipindən yanaşaraq ağacların da körpə uşaq kimi diqqət, qayğı istədiyini, vaxtı-vaxtında sulanmasını, dibinin boşaldılmasını, qulluq görən ağacların nə "möcüzələr" yaratmasını oxucusuna xoş ovqatla çatdırırdı.

Mir Cəlalı düşündürən digər məqam isə müasirlərindən daha fərqlidir, təfəkkür tərzi ilə sıx bağlıdır, maraqlıdır, o, bunu təbiətlə real həyatın məntiqi bağlılığında axtarır: "Lalə, bənövşə, gülxətmi, qazayağı, quşəppəyi, quzuqulağı, ayıdöşəyi, çobangülü...

Dağların, dərələrin saysız-hesabsız bitkilərinə qısa, münasib, uyğun adları görəsən kim verib? Hansı bir qüdrətli qələmdir ki, yetirən məxluqun hərəsinə daimi bir möhür vurur, biz də ona baxıb hər şeyi adı ilə çağırırıq, mahnılara salır, kitablara yazır, dillərə tərcümə edirik? Yalnız təbiət aləmində yox, adi həyat məişətində də belə olur" (1, IV, s.126). Real həyatla təbiətin qarşılaşması... Bundan gözəl məntiqi yanaşma ola bilməzdi... Təbiətin zənginliyi, hikmət çeşməsindən damla-damla süzülüb milli adlarını qoruyaraq minilliklər boyu insanları bir-birinə bağlayır, yaddaşlarda yaşadır, zirvələrə ucaldır, gələcək nəsillərə ötürür.

Beləliklə, zaman dəyişir, insanlar qocalır, Ana təbiət isə qocalmır... Təbiət insanlar, nəsillər arasında körpü yaradır, yaşamağa zəmanət verir, ruhları təzələyir, estetik zövq verir. Bu tarixi və təbii bağı – insanla təbiətin harmoniyasını qorumaq, ətraf mühitin keşiyində dayanmaq, təbii resurslarda düzgün istifadə etmək, onlardan yararlanmaq Mir Cəlal yaradıcılığının əsas qayəsi, gələcək nəsillərə ötürdüyü mesaj idi.

**Ədəbiyyat**.

1. Mir Cəlal. Əsərləri. I-V cild, Bakı, Adiloğlu nəşriyyatı, 2013.